

# Strateji müttəfiqliyin yeni arxitekturası

*Azərbaycanın müasir beynəlxalq münasibətlər sistemindəki mövqeyi coğrafi üstünlüklərlə, praqmatik və prinsipial xarici siyasət strategiyası ilə müəyyən olunur. Müstəqil xarici siyasət kursuna malik dövlət olaraq Azərbaycan həm regional, həm də qlobal miqyasda çoxvektorlu diplomatiya yürüdərək mühüm beynəlxalq və regionlararası təşkilatlarla sıx əməkdaşlıq edir. Onların arasında xüsusilə fərqlənənlərdən biri də Türk Dövlətləri Təşkilatıdır (TDT). Ölkəmiz bu qurumu sadəcə siyasi platforma deyil, həm də tarixi, mədəni və mənəvi köklərlə birləşmiş dövlətlərin strateji həmrəyliyi kimi qiymətləndirir.*

TDT-nin siyasi, iqtisadi və təhlükəsizlik müstəvisində güclənməsi üzv ölkələrlə yanaşı, Avrasiya regionunda yeni güc balansının formalaşması baxımından mühüm əhəmiyyət daşıyır. Azərbaycanın bu təşkilat çərçivəsində həm ikitərəfli, həm də çoxtərəfli formatlarda intensiv əlaqələr qurması və bu əlaqələri ardıcıl şəkildə dərinləşdirməsi təşkilatın effektivliyinə real töhfə verir. Xüsusilə qeyd olunmalıdır ki, rəsmi Bakı həm də geosiyasi və iqtisadi maraqlarla üzv ölkələrə inteqrasiya edir. Bu isə TDT-nin gələcəkdə vahid regional güc mərkəzinə çevrilməsi perspektivini artırır. Prezident İlham Əliyevin 2024-cü ilin mayında Bişkekə rəsmi səfəri və orada səsləndirdiyi strateji mesajlar da Azərbaycanın türk dövlətləri ilə münasibətlərə verdiyi önəmi bir daha nümayiş etdirdi. Dövlət başçısının vurğuladığı kimi, Azərbaycan türk dünyasını vahid ailə modeli kimi qəbul edir və bu ailənin siyasi, iqtisadi baxımdan güclənməsi ölkənin xarici siyasətinin əsas prioritetlərindən biri olaraq qalır. Prezident İlham Əliyev bu baxışı daha əvvəl 2024-cü il fevralın 14-də keçirilmiş andiçmə mərasimində də açıq şəkildə ifadə edərək TDT-ni Azərbaycan üçün "əsas beynəlxalq təşkilat" kimi xarakterizə etmişdi. Bu yanaşma ölkəmizin digər beynəlxalq qurumlarla əməkdaşlığını istisna etmədən TDT-nin strateji rolunu ön plana çıxarır.

Respublikamızın təşkilat çərçivəsindəki xüsusi rolu həm də onun çoxşaxəli tarixi və mədəni irsi ilə izah olunur. Coğrafi baxımdan Qafqaz ilə Mərkəzi Asiya arasında körpü rolunu oynayan Azərbaycan müasir tarixi proseslərdə Mərkəzi Asiya respublikaları ilə paralel inkişaf yolu keçmişdir. Sovet İttifaqının dağılmasından sonra formalaşan siyasi reallıqlar çərçivəsində ölkəmiz və regionun digər türk dövlətləri oxşar çağırışlarla üzləşmiş, bənzər inkişaf trayektoriyaları üzrə hərəkət etmişdir. Bu isə onların qarşılıqlı əməkdaşlığını daha da asanlaşdırmış və dərinləşdirmişdir. TDT çərçivəsində Azərbaycanla digər üzv və müşahidəçi ölkələr arasında formalaşan münasibətləri yeni geosiyasi nizamın konturlarını cızan çoxqatlı əməkdaşlıq formatıdır. Dövlətimizin fəal və təşəbbüskar rolu isə onun beynəlxalq münasibətlərdə formalaşdırdığı yeni mövqeyin və strateji vizyonunun təzahürüdür.

İkinci Qarabağ müharibəsində Azərbaycanın əldə etdiyi qələbə həm də regional güc nisbətinin yenidən qurulması baxımından dönüş nöqtəsi oldu. Bu tarixi Zəfər Azərbaycanın Türk Dövlətləri Təşkilatında mövqeyinin daha da möhkəmlənməsinə, üzv ölkələrlə strateji əməkdaşlığın keyfiyyətcə yeni mərhələyə keçməsinə şərait yaratdı. Siyasi, iqtisadi, mədəni və humanitar sahələrdə genişlənən münasibətlər artıq regionlararası birgə inkişaf modelinə çevrilməkdədir. Dövlət başçısı İlham Əliyevin TDT-yə üzv ölkələrin inteqrasiyası və ortaq gələcək vizyonunun formalaşmasında oynadığı aparıcı rol təşkilat daxilində və ondan kənarda geniş şəkildə təqdir olunur. Bişkekdə keçirilmiş Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 11-ci Zirvə Görüşündə Prezident İlham Əliyevin səsləndirdiyi strateji tezislər Azərbaycanın təşkilata verdiyi yüksək önəmin növbəti təzahürü oldu. Rəsmi Bakı həm də institusional dəstək göstərərək TDT-nin struktur güclənməsinə real töhfə verir. Məhz bu kontekstdə Prezident İlham Əliyev Azərbaycanın təşkilatın Katibliyinə 2 milyon, Ağsaqqallar Şurasına isə 100 min ABŞ dolları məbləğində maliyyə dəstəyi ayırdığını bəyan etdi. Bu addım Azərbaycanın praktik mexanizmlərlə inteqrasiyanı sürətləndirən aparıcı üzv olduğunu bir daha təsdiqlədi. Respublikamızın Türk dövlətləri ilə əməkdaşlığı təkcə ortaq dil, tarix və mədəni dəyərlər üzərində qurulmur, bu münasibətlər, eyni zamanda müasir dövrün reallıqlarını əks etdirən strateji infrastruktur və nəqliyyat layihələri vasitəsilə konkret iqtisadi və geosiyasi təmələ söykənir. Xüsusilə Şərq-Qərb nəqliyyat dəhlizində Azərbaycanın oynadığı körpü rolu region daxilində, qlobal ticarət və logistika sistemində də onun əhəmiyyətini artırır. Avropa ilə Asiya arasında yerləşən Azərbaycanın əlverişli coğrafi mövqeyi TDT-nin üzv və müşahidəçi ölkələri üçün logistik baxımdan strateji üstünlük təmin edir. Bu kontekstdə Azərbaycan Orta Dəhlizin inkişafında əsas həlqəyə çevrilmişdir. Hazırda Bakı-Tbilisi-Qars dəmir yolu xətti və Ələt Beynəlxalq Dəniz Ticarət Limanı kimi mühüm infrastruktur layihələri sayəsində dövlətimizin ərazisindən keçən yüklərin həcmi artmaqdadır. Bu artım yalnız mövcud nəqliyyat şəbəkəsinin potensialını üzə çıxarmır, eyni zamanda TDT-nin vahid iqtisadi məkan kimi formalaşmasında təməl rolu oynayır. Azərbaycanın bu dəhlizin ötürmə qabiliyyətini artırmaq məqsədilə sərmayələrini genişləndirməsi, o cümlədən rəqəmsal texnologiyaların tətbiqi və gömrük prosedurlarının sadələşdirilməsi istiqamətində layihələr həyata keçirməsi regionda logistika səmərəliliyinin yüksəlməsinə və ümumi tranzit xərclərinin azalmasına şərait yaradacaq.

Mayın 21-də Macarıstanın paytaxtı Budapeştdə keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü türk dünyasının siyasi konsolidasiyasının və institusional güclənməsinin növbəti mühüm mərhələsi kimi tarixə düşdü. Macarıstanın Baş naziri Viktor Orbanın da vurğuladığı kimi, bu görüş bir tərəfdən Türk dövlətləri ilə Avropa İttifaqı arasında strateji körpünün formalaşmasını simvolizə edir, digər tərəfdən isə Azərbaycanın bu birlikdəki aparıcı rolunu bir daha təsdiqləyir. Zirvə görüşündə Prezident İlham Əliyevin çıxışı Azərbaycanın TDT daxilində həm siyasi, həm iqtisadi baxımdan liderlik missiyasını aydın şəkildə ortaya qoydu. Dövlətimizin başçısının vurğuladığı kimi, bu il Azərbaycanın TDT-nin rəsmi Zirvə görüşünə ev sahibliyi edəcəyi Bakının türk birliyinin mərkəzi koordinasiya platformasına çevrildiyini göstərir. Prezidentin dövlət başçılarını Zirvə görüşündə iştirak üçün Azərbaycana rəsmi dəvəti, təşkilatdaxili həmrəyliyin və strateji koordinasiyanın gücləndirilməsi istiqamətində önəmli diplomatik jest idi. Təsadüfi deyil ki, Azərbaycan bu günə qədər türk dövlətlərinə 20 milyard ABŞ dollarından artıq sərmayə qoyub. Bu rəqəm təkcə iqtisadi əməkdaşlığın intensivliyini deyil, həm də Azərbaycanın bu ölkələrlə uzunmüddətli strateji inteqrasiyaya sadiqliyini nümayiş etdirir. Zirvə görüşündə Prezident Əliyev TDT üçün institusional əhəmiyyət kəsb edən yeni bir strukturun - Türk İnvestisiya Fondunun fəaliyyətə başlayacağını elan etdi. Bu fond türk dövlətləri arasında investisiya dövriyyəsini stimullaşdırmaqla yanaşı, həm də regional iqtisadi layihələrin maliyyələşdirilməsində ortaq maliyyə mexanizmlərinin yaradılmasına imkan verəcək. Azərbaycan üçün bu təşəbbüs yalnız iqtisadi deyil, eyni zamanda siyasi sabitlik və qarşılıqlı asılılıq əsasında qurulan əməkdaşlıq modelinin möhkəmləndirilməsi deməkdir. Prezidentin çıxışında xüsusi yer alan digər vacib məqam nəqliyyat və logistika sahəsində əldə olunan nəticələr və qarşıdakı hədəflər idi. Azərbaycan son illər ərzində avtomobil yolları, dəmir yolları, gəmiqayırma zavodu, hava limanları və dəniz limanı sahəsində həyata keçirilmiş infrastruktur layihələri nəticəsində Avrasiyanın nəqliyyat-logistika qovşağına çevrilmişdir. 2024-cü ildə Türkiyə və Mərkəzi Asiya ölkələrinin Azərbaycan üzərindən keçən tranzit daşımalarının həcmi 11 milyon tona çatmışdır ki, bu da Orta Dəhlizin əhəmiyyətinin artdığını açıq şəkildə göstərir. Bakı-Tbilisi-Qars dəmir yolunun daşıma qabiliyyətinin 5 milyon tona çatdırılması isə Azərbaycanın bu dəhlizdəki rolunu yalnız logistik tərəfdaş kimi deyil, həm də infrastruktur sponsoruna çevirmişdir. Orta Dəhlizin rəqəmsallaşdırılması təşəbbüsü də Azərbaycanın innovativ yanaşmasının göstəricisidir. Xəzər dənizi limanları arasında vahid rəqəmsal platforma yaradılması texniki-modernizasiya, ticarətin asanlaşdırılması və beynəlxalq rəqabət qabiliyyətinin artırılması baxımından mühüm addımdır. Bu platforma sayəsində gömrük və tranzit prosedurlarının sadələşdirilməsi, məlumat mübadiləsinin sürətlənməsi və yük dövriyyəsinin şəffaf şəkildə idarə olunması təmin ediləcək.

Görüşün yekununda imzalanan 71 bənddən ibarət Budapeşt Bəyannaməsi Türk dövlətlərinin regional və qlobal siyasətdə yeni koordinasiya mərhələsinə keçdiyini göstərdi. Bəyannamənin siyasi tezislərindən biri kimi dövlət başçıları TDT-nin hüquqi əsasını təşkil edən 2009-cu il Naxçıvan Sazişinin prinsiplərinə sarsılmaz sadiqliyi bir daha bəyan etdilər. Bəyannamədə "Türk Dünyası Xartiyası" xüsusi yer tutur. Bu sənəd türk dövlətlərinin ortaq dil, tarix, adət-ənənə və mədəniyyətə əsaslanan inteqrasiyasını yalnız ideoloji baxımdan deyil, həm də strateji və institusional çərçivədə təsbit edir. Dövlət başçılarının bu xartiyanı "ortaq türk kimliyinin möhkəmləndirilməsi üçün birləşdirici çərçivə" kimi tanımaları gələcəkdə təhsil, informasiya mühiti, humanitar diplomatiya və gənclər siyasəti sahəsində inteqrasiyanın dərinləşdirilməsinin əsasını qoyur. Bəyannamədə xüsusi vurğulanan məsələlərdən biri də müşahidəçi ölkə olan Macarıstanın Türk Dövlətləri Təşkilatına göstərdiyi dəstək və ilk dəfə ev sahibliyi etdiyi qeyri-rəsmi Zirvə görüşünün əhəmiyyətidir. Macarıstan TDT-yə Avropa İttifaqı məkanında strateji tərəfdaşlıq fürsətləri qazandırmaqla yanaşı, həm də Qərb ilə Şərq arasında diplomatik körpünün mühüm dayağına çevrilməkdədir. Baş nazir Viktor Orbanın Azərbaycan-Macarıstan münasibətlərini "strateji səviyyəli" adlandırması isə Bakının türk dövlətləri ilə yanaşı, Avropanın mərkəzi gücləri ilə qurduğu çoxvektorlu diplomatiyanın nəticəsidir.

Budapeşt Zirvəsi və onun nəticəsi olan Bəyannamə Türk Dövlətləri Təşkilatının artıq real mexanizmlərlə fəaliyyət göstərən və gələcək beynəlxalq münasibətlər sistemində öz yerini müəyyənləşdirməyə çalışan bir güc mərkəzinə çevrildiyini sübut etdi. Azərbaycan bu prosesin mərkəzində duran dövlət kimi həm təşkilatın siyasi baxışının formalaşmasında, həm də iqtisadi və logistik dayaqlarının qurulmasında aparıcı rola malikdir. Bu, gələcəyin ortaq yol xəritəsi kimi qəbul edilə bilər.

**Nurlan ABDALOV,**
**"Respublika".**